# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

19 iyul 2018-ci il
Cümə axşamı

№ 28 (3392)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEVİN YANINDA RESPUBLİKANIN HÜQUQ-MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ İCLAS KEÇİRİLİB

İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə iclas keçirilib.

İclasda çıxış edən Prezident İlham Əliyev dedi:

-İyulun 3-də və iyulun 10-da Gəncə şəhərində törədilmiş qanlı cinayətlər dövlətçiliyimizə qarşı törədilmiş cinayətlərdir. Bu terror aktları nəticəsində iki polis əməkdaşı həlak oldu. Yaralanan vətəndaşlarımız da var, onlardan biri də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısıdır. Allah şəhidlərimizə rəhmət eləsin, yaralananlara Allah şəfa versin.

Bu cinayətləri törədən terrorçu qruplaşma Azərbaycanda sabitliyi pozmaq istəyir. Bu cinayətlərin əsas məqsədi bundan ibarətdir. Bu qanlı terror aktları cəmiyyətdə gərginlik yaratmaq və cəmiyyətimizi qorxutmaq məqsədilə törədilmişdir. Bu terror aktları dini şüarlar altında törədilmişdir. Bu, özlüyündə İslam dininə qarşı ən böyük cinayətdir. Çünki İslam sülh, mərhəmət dinidir. Azərbaycan dövləti və Azərbaycan xalqı öz milli, dini dəyərlərini daim qoruyur. Azərbaycan İslam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biridir. Bildiyiniz kimi, ötən il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmuşdur, İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu il Naxçıvan İslam mədəniyyətinin paytaxtı şəhəridir. Bir neçə il əvvəl Bakı şəhəri bu şərəfli ada layiq görülmüşdür. Müsəlman ölkələrini birləşdirən İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini sahədə görülən işlərə ən yüksək qiymət verir. Azərbaycan dövlətinin xətti və dəstəyi ilə dövlət vəsaiti hesabına bizim tarixi-dini abidələrimiz tam bərpa olunub, yenidən qurulub, yeni məscidlər tikilib. Yəni, bir daha demək istəyirəm ki, bu cinayəti dinimizə bağlamaq istəyənlər dinimizə qarşı ən böyük cinayət törədiblər. Bu cinayətkarlar müsəlman deyillər və bu cinayətlər cavabsız qalmır. Cinayətkarlar və onların



arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər. Azərbaycan dövləti və Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcək. Bütün Azərbaycan xalqı bu qanlı cinayətləri birmənalı olaraq pislədi və bu cinayətləri törədənlərə qarşı öz nifrətini ifadə etdi.

Azərbaycan dövləti isə öz üzərinə düşən bütün vəzifələri şərəflə yerinə yetirir. Cinayətkar dəstə zərərsizləşdirilib, əməliyyat-axtarış işləri davam etdirilir. Bu cinayətlərdə əli olan bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar. Hüquq-mühafizə orqanları qarşısında bu vəzifə qoyulub, əminəm ki, biz buna nail olacağıq.

Bizim müstəqillik tariximizdə ölkəmizə qarşı bir neçə dəfə təxribatlar törədilmişdir, o cümlədən silahlı təxribatlar, terror aktları, dövlət çevrilişlərinə cəhd. Onların biri də baş tutmadı. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycanda xalq-iqtidar birliyi var. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm, xalq-iqtidar birliyi sabitliyimizin əsas şərtidir. Xalq-iqtidar birliyini heç bir qüvvə - nə xarici, nə daxili qüvvə sarsıda bilməz.

Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz. Bizi tutduğumuz yoldan heç kim döndərə bilməz. Azərbaycanın müasir tarixi mənim dediklərimi dəfələrlə sübut edib. Kim ki, bizə qarşı çirkin niyyətlərlə hərəkət edib, özü bu hərəkətlərin qurbanı olub. Əvvəllər də belə olub, bu gün də belədir, bundan sonra da belə olacaq.

Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədə təmin edilir. Dünya miqyasında Azərbaycan ən təhlükəsiz ölkələrdən biridir. Azərbaycan xalqı sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayıb yaradır, qurur. Azərbaycan xalqının rahat yaşaması üçün biz əlimizdən gələni edirik. Bu gün Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən müasir dövlətdir. Gündən-günə bizim gücümüz artır, gündən-günə bizim potensialımız güclənir - həm siyasi sahədə, diplomatik sahədə, iqtisadi sahədə, hərbi quruculuq sahəsində, döyüş meydanlarında, idman meydançalarında, sosial sahədə. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci bir ölkə olmamışdır. Ona görə, əlbəttə ki, bizim uğurlarımıza kölgə salmaq, siyasətimizə təsir etmək istəyən qüvvələr müxtəlif üsullardan istifadə edirlər. Bizə qarşı çirkin kampaniyalar aparılır, qarayaxma, şər-böhtan kampaniyaları. Yalan, iftira üzərində qurulmuş bu kampaniyaların heç bir səmərəsi olmur. Azərbaycan xalqı bu yalanlara, bu böhtanlara inanmır. Azərbaycan xalqı öz rəhbərliyinə inanır. Bu il keçirilmiş prezident seçkiləri bunu bir daha bütün dünyaya əyani şəkildə sübut etdi.



Bizə qarşı müxtəlif xarici mərkəzlərdən idarə olunan media qaralama kampaniyası aparılır. Bunun da heç bir səmərəsi olmur. Özünü hüquq müdafiəçisi adlandıran bir neçə qeyri-hökumət təşkilatı Azərbaycana qarşı gecə-gündüz şər-böhtan kampaniyası aparır. Bunun da nə ölkə daxilində, nə də ki, xaricdə heç bir təsiri olmadı. Bizim xarici əlaqələrimiz genişlənir. NATO-nun bu günlərdə keçirilmiş Zirvə görüşü bizim nə qədər yüksək hörmətə malik olduğumuzu bir daha sübut etdi. Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə malik bir ölkədir.

Yəni, bu cəhdlər əbəsdir. Bizim siyasətimizə, bizim iradəmizə şər qüvvələr heç cür təsir edə bilmir. Onların son addımları göstərir ki, terrordan başqa əllərində bir şey qalmayıb. Bu da keçməyəcək, necə ki, əvvəlki illərdə keçməyib. Azərbaycan dövləti bu dəfə də öz gücünü göstərib və göstərəcəkdir. Bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar, məhkəmə qarşısında, ədalət qarşısında, xalq qarşısında cavab verəcəklər. Bunu təmin etmək üçün bizim kifayət qədər gücümüz, imkanlarımız var.

Cinayətlərdən sonra aparılan əməliyyat-axtarış tədbirləri onu göstərir ki, cinayətkarların bir hissəsi artıq saxlanılıbdır. Operativ əməliyyat-axtarış tədbirləri davam etdiriləcək. Tam əminliklə deyə bilərəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək.

Azərbaycan xalqı isə tam əmin ola bilər ki, Azərbaycan bundan sonra da inkişaf, tərəqqi yolu ilə gedəcək. Biz bundan sonra da öz siyasətimizi aparacağıq, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik.

Sonra hüquq-mühafizə orqanlarının rəhbərləri törədilən cinayətlərlə bağlı həyata keçirilən əməliyyat-axtarış tədbirləri və atılacaq addımlar barədə dövlətimizin başçısına məruzə etdilər.

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ƏMƏKDAŞLARININ "AZƏRBAYCAN BAYRAĞI" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

2018-ci il iyulun 10-da Gəncə şəhərində ictimai asayişi kobud şəkildə pozmaq cəhdinin qarşısının alınması zamanı cəsarət və polis andına sonadək sadiqlik nümayiş etdirərək qəhrəmancasına həlak olmuş Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilsinlər:

İlqar Məmməd oğlu Balakişiyev - polis polkovniki (ölümündən sonra)

Səməd Yunis oğlu Abbasov - polis polkovnik-leytenantı (ölümündən sonra)

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 13 iyul 2018-ci il*

NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə Zirvə toplantısında iştirak etmək üçün Belçika Krallığında səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb.

Görüşdən sonra "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanma mərasimi olub.

İyulun 11-də Azərbaycan Prezidenti İlham Əliyevin və Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü olub.

Həmin gün Brüsseldə NATO-nun müttəfiq və tərəfdaş ölkələrinin dövlət və hökumət başçıları üçün qəbul təşkil edilib.

Azərbaycan Prezidenti qəbulda iştirak edib.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKAYA SƏFƏRİ

İyulun 12-də Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

Prezident İlham Əliyev Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak etmək üçün NATO-nun yeni mənzil-qərargahına gəlib.

Dövlətimizin başçısı burada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Bakir İzetbeqoviç ilə görüşüb.

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Brüsseldə BMT baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari Dikarlo ilə görüşüb.

İyulun 12-də Prezident İlham Əliyevin Brüsselə səfəri başa çatıb.

**İtaliya Respublikasının Prezidenti Sercio Mattarella iyulun 17-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. İyulun 18-də İtaliya Prezidentinin rəsmi qarşılanma mərasimi olub.**

*Ətraflı gələn sayımızda.*

**Azərbaycan Prezidenti İlham Əliyev iyulun 13-də İran İslam Respublikasının səhiyyə, müalicə və tibbi təhsil naziri Həsən Qazizadə Haşiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı iyulun 13-də Azərbaycan Respublikasında tibb elminin inkişafında böyük xidmətlərinə görə Sudeif Bəşir oğlu İmamverdiyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri iyulun 14-də Mastunq şəhərində törədilmiş partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Məmnun Hüseynə başsağlığı teleqramı göndərib.**

❖❖❖❖❖

***İyulun 16-da dövlətimizin başçısı İlham Əliyev Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin işçilərinin təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri iyulun 16-da Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev iyulun 16-da XXI dünya çempionatında Fransa futbolçularının möhtəşəm qələbəsi və dünya çempionu adını qazanması münasibətilə Fransa Respublikasının Prezidenti zati-aliləri cənab Emmanuel Makrona təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı iyulun 16-da Futbol üzrə XXI dünya çempionatında Xorvatiya yığma komandasının uğurlu çıxış edərək bu mötəbər turnirin gümüş medalını qazanması münasibətilə Xorvatiya Respublikasının Prezidenti zati-aliləri xanım Kolinda Qrabar-Kitaroviçə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri iyulun 16-da futbol üzrə XXI Dünya Çempionatının uğurla keçirilməsi münasibətilə Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə təbrik məktubu göndərib.***

## DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**İyulun 14-də Daxili İşlər Nazirliyində 2018-ci ilin birinci yarısında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**

**İclası giriş sözü ilə açan daxili işlər naziri, general-polkovnik Ramil Usubovun təklifi ilə iyulun 10-da radikal dini yönümlü bir qrup ekstremistin Gəncə şəhərində ictimai asayişin kobud şəkildə pozulması cəhdinin qarşısı alınan zaman xidməti vəzifələrini yerinə yetirərkən şəhid olmuş polis zabitləri İlqar Balakişiyevin və Səməd Abbasovun əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Nazir əvvəlki dövrlərdə əldə olunmuş müsbət nəticələrin bu ilin altı ayında daha da inkişaf etdirildiyini, kriminogen durumun nəzarətdə saxlanıldığını, ölkəmizdə keçirilmiş prezident seçkiləri dövründə, eləcə də «2018 Formula 1 Azərbaycan Qran Prisi» zamanı ictimai asayişin və təhlükəsizliyin təmini vəzifələrinin və qarşıya qoyulmuş tapşırıqların layiqincə yerinə yetirildiyini bildirib, 100 illik yubileyi münasibətilə şəxsi heyətə ünvanladığı təbrikdə ölkə rəhbərimizin cinayətkarlıqla mübarizədə, qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin edilməsində polisin rolunu yüksək qiymətləndirdiyini məmnunluqla xatırladıb.

*Ardı 2-ci səhifədə.*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Əvvəli 1-ci səhifədə.**

Eyni zamanda, iyulun 3-də Mingəçevirdəki "Azərbaycan" İstilik Elektrik Stansiyasında baş vermiş qəzanın fəsadlarının aradan qaldırılması və ictimai təhlükəsizliyin təmini istiqamətində daxili işlər orqanlarının fəaliyyətinin möhtərəm dövlət başçımız tərəfindən yüksək qiymətləndirildiyi xüsusi qeyd olunub.

Sonra geniş məruzə ilə çıxış edən daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazov hesabat dövründə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 12.844 cinayətin qeydə alındığını, bu cinayətlərin 93,8 faizinin daxili işlər və prokurorluq orqanları tərəfindən istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olduğunu, onların 89,4 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 10,6 faizininin ağır və xüsusilə ağır növlər təşkil etdiyini bildirib.



Qeyd olunub ki, profilaktik işin gücləndirilməsinin, kriminogen durumun fasiləsiz izlənilməsinin nəticəsi olaraq, cinayətkarlığın dinamikasında mövcud olan müsbət təmayüllər ötən 6 ayda daha da yaxşılaşıb. Belə ki, cinayətlərin sayı 3,4 faiz, o cümlədən ağır və xüsusilə ağır növlər 28,6, qəsdən sağlamlığa ağır zərər vurmalar 2,9, mülkiyyət əleyhinə olan cinayətlər 14, onlardan oğurluqlar 7,1, quldurluqlar 12,7, yol-nəqliyyat hadisələri 5, qəzalarda həlak olanların sayı isə 1,3, xəsarət alanların sayı isə 8,3 faiz azalıb.

Kriminal qəsdlərin qurbanlarının pozulmuş hüquqlarının bərpası istiqamətində peşəkarlıqla həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə hesabat dövründə cinayətlərin açılması yaxşılaşaraq 86,4 faiz təşkil edib. O cümlədən, 2017-ci ilin 6 ayı ilə müqayisədə ağır və xüsusilə ağır cinayətlərin açılması 2,1, şəxsiyyət əleyhinə olanların açılması 0,6, adam öldürməyə cəhdlərin açılması 1,8, mənzillərdən edilən oğurluqların açılması 2,6, avtonəqliyyatın qaçırılması cinayətlərinin açılması 12,8 faiz artıb. Prokurorluq orqanları ilə birgə davam etdirilən istintaq hərəkətləri və əməliyyat tədbirləri nəticəsində keçmiş illərdən bağlı qalmış 188 cinayət açılıb.

Hüquqazidd əməllərin profilaktikasında və cinayətkarlıqla mübarizədə informasiya texnologiyalarının tətbiqinin əhəmiyyətindən danışan nazirin birinci müavini bildirib ki, "102" Zəng mərkəzinə daxil olan məlumatlar üzrə görülən operativ tədbirlər və əməliyyat planlarının vaxtında tətbiqi nəticəsində 967 cinayət "isti izlər"lə açılıb, 5.153 hüquqazidd əməlin qarşısı alınıb, 1993 cinayət işi başlanılıb. Həmçinin "Təhlükəsiz şəhər" xidmətinin imkanları ilə 248 cinayət açılıb, 9413 yol-nəqliyyat qəzası, piyadaların vurulması ilə nəticələnən 246 hadisə aşkarlanıb, axtarışda olan 52 avtomobil saxlanılıb.

Cinayətə görə məsuliyyətin labüdlüyünün təmini işi də nəzarətdə saxlanılıb, bütövlükdə, axtarış işinin nəticələri 2 faiz yaxşılaşaraq 57,4 faiz təşkil edib.

Məruzəçi bildirib ki, 6 ayda mütəşəkkil cinayətkarlığa qarşı həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 441, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 47 qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 82 nəfər cinayət məsuliyyətinə cəlb edilib.

Transmilli mütəşəkkil cinayətlərdən olan narkotraffikə qarşı mübarizə tədbirləri səmərəli olmaqla bu sahədə müəyyən edilmiş 1708, o cümlədən satışı ilə bağlı olan 525 fakt üzrə cinayətkarlardan 734,4 kiloqram narkotik vasitə götürülüb ki, bu da ötən ilin 6 ayı ilə müqayisədə 131 kiloqram çoxdur. Xüsusi plan əsasında cari ilin may ayında başlanılmış tədbirlərlə qanunsuz kultivasiya edilən və yabanı halda bitən 78,8 ton çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.

İnsan alverinə qarşı mübarizədə müvafiq qanunvericilik aktları və Milli Fəaliyyət Planı əsasında görülən işlərin ardıcıl davam etdirildiyi, 105 insan alveri cinayətinin müəyyən edildiyi, 18 nəfərdən ibarət 8 cinayətkar qrupun zərərsizləşdirildiyi, bu faktlar üzrə başlanılmış cinayət işlərinin istintaqı çərçivəsində 17 nəfərin məhkəmə məsuliyyətinə cəlb olunduğu, habelə insan alverinin qurbanı olmuş 66 şəxsin cəmiyyətə reinteqrasiyası təmin edildiyi diqqətə çatdırılıb.

Polis general-leytenantı V.Eyvazov daha sonra deyib ki, istintaq zamanı dövlətə, hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın ödətdirilməsi 14,6 faiz yaxşılaşaraq 88,3 faiz təşkil edib.

Fəaliyyətin əsas istiqamətlərindən olan yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində davam etdirilən qabaqlayıcı tədbirlər sayəsində yol-nəqliyyat hadisələrinin dinamikasında əvvəlki illərin müsbət təmayülləri qorunub saxlanılıb, yol hərəkəti qaydaları əleyhinə olan hüquqpozmaların aşkarlanması 4,1 faiz yaxşılaşaraq 1.619.718 inzibati xəta təşkil edib.

Polisin mühafizə qurumları tərəfindən 16.201 obyektin, o cümlədən 6.591 mənzil




qorunduğu, mərkəzi mühafizə məntəqələrinə qoşulmuş obyektlərin sayının ötən 6 ayda bir qədər də artdığı, həmin obyektlərdə 128 oğurluq hadisəsinin qarşısı alınmaqla 52 şəxsin, habelə xidməti marşrutlarda 88 digər cinayət törətmiş 98 nəfərin yaxalandığı qeyd olunub.

Məruzədə Daxili Qoşunlarda xidməti-döyüş hazırlığının yüksəldilməsi, səfərbərliyin təşkili hərbi intizamın möhkəmləndirilməsi, maddi-texniki təchizatın və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlərin planlı şəkildə davam etdirildiyi də diqqətə çatdırılıb.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə Prezidentinin qarşıya qoyduğu proqram vəzifələrin və zəruri təşkilati-əməli tədbirlərin daxili işlər nazirinin şəxsi nəzarəti altında cari ilin birinci yarısında da icra edildiyi, Nazirliyin rəhbərliyi tərəfindən 805, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın ayrı-ayrı şəhər və rayonlarında 156 vətəndaşın qəbulunun həyata keçirildiyi, qaldırılan məsələlərin əksəriyyətinin öz müsbət həllini tapdığı, DİN-ə daxil olan şikayətlərin sayının 18,4 faiz azaldığı vurğulanıb.

Məruzə ətrafındakı çıxışlarda ayrı-ayrı struktur qurumlarının, şəhər, rayon polis orqanlarının rəisləri görülmüş işlər, mövcud nöqsanların aradan qaldırılması üzrə qarşıda duran vəzifələr barədə məlumat veriblər.



Tədbirə yekun vuran nazir bugünkü Kollegiya iclasının əlamətdar bir hadisə ilə üst-üstə düşdüyünü, 49 il öncə məhz iyulun 14-də ümummilli lider Heydər Əliyevin ilk dəfə respublika rəhbəri seçildiyini, hazırda Azərbaycanda hökm sürən ictimai-siyasi sabitliyin, əmin-amanlığın, ölkəmizin sürətli sosial-iqtisadi inkişafının, dünyada söz sahibinə çevrilməsinin əsasının ulu öndərin Azərbaycanda ali hakimiyyətə tarixi qayıdışından sonra qoyulduğunu xatırladıb. Bu müddətdə ulu öndərin rəhbərliyi altında hüquq mühafizə və təhlükəsizlik orqanlarının birgə, məqsədyönlü fəaliyyəti nəticəsində respublikamızda sabitliyin, əmin-amanlığın bərpa edildiyini, cinayətkarlığa qarşı qətiyyətli mübarizənin aparıldığını, cəmiyyət həyatının bütün sahələrində köklü islahatlar həyata keçirildiyini diqqətə çatdıran cənab Ramil Usubov əldə edilən bütün uğurların əsasında Azərbaycandakı xalq-iqtidar birliyinin olduğunu, heç bir qüvvənin onu sarsıda bilməyəcəyini xüsusi vurğulayıb.

Sonra daxili işlər naziri hesabat dövründə əməliyyat-xidməti fəaliyyətin bütövlükdə qənaətbəxş olduğunu, qanunla müəyyən edilmiş vəzifələrin yerinə yetirildiyini, cinayətkarlığa qarşı mübarizədə, ictimai təhlükəsizliyin təmin edilməsində əməkdaşların və hərbi qulluqçuların yüksək peşəkarlıqları ilə fərqləndiyini, eləcə də digər hüquq-mühafizə orqanları ilə birgə ölkədə daxili sabitliyin və asayişin qorunması işinin hazırda da uğurla davam etdirildiyini bildirib.

Kollegiya iştirakçılarının diqqətini həlli vacib olan məsələlərə yönəldən, tapşırıq və tövsiyələrini verən nazir ilk növbədə dini ekstremizmə, həmçinin narkotiklərin qanunsuz dövriyyəsinə və mülkiyyət əleyhinə olan cinayətlərə qarşı mübarizənin daha da gücləndirilməsini, cinayətkarlığa qarşı mübarizədə informasiya resurslarının imkanlarından maksimum istifadə olunmasını, əməkdaşlar arasında aparılan mənəvi-psixoloji işin məqsədyönlü şəkildə davam etdirilməsini, onlarda düzgün polis düşüncəsinin formalaşdırılmasını tələb edib.

Azərbaycan Polisinin yaranmasının 100 illik yubileyi münasibətilə möhtərəm Prezidentimizin təbrikində cinayətkarlığa qarşı mübarizədə, qanunun aliliyinin, insan hüquq və azadlıqlarının müdafiəsində daxili işlər orqanlarının rolunun yüksək qiymətləndirilməsinə diqqəti çəkən cənab Ramil Usubov ölkə başçısının müvafiq sərəncamları ilə 49 əməkdaşın dövlət mükafatına layiq görüldüyünü, rəhbər vəzifəli 2 şəxsə ali rütbə verildiyini məmnunluqla xatırladıb, bu ali diqqətin, etimad və inamın şəxsi heyətin üzərinə böyük məsuliyyət qoyduğunu, onu layiqincə doğrultmaq üçün qarşıda çox mühüm vəzifələr durduğunu deyib. Bu məqsədlə cinayətkarlığa qarşı mübarizədə əldə edilmiş müsbət nəticələr inkişaf etdirilməli, xidməti fəaliyyətdə mövcud olan nöqsan və çatışmazlıqlar tam aradan qaldırılmalı, şəxsi heyət peşəkarlığını daim yüksəltməli, ölkəmizdə xalq-iqtidar birliyinə söykənən sabitlik günbəgün möhkəmləndirilməli, asayiş və daxili təhlükəsizlik daha etibarlı qorunmalıdır.

Daxili işlər naziri əmin olduğunu bildirib ki, şəxsi heyət cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələri, eləcə də ölkədə hüquq qaydasının və qanunçuluğun möhkəmləndirilməsi, əməliyyat-xidməti fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı əmr və göstərişlərini bundan sonra da məsuliyyətlə yerinə yetirəcək, sabitliyin, əmin-amanlığın, dövlətin, hüquqi və fiziki şəxslərin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcək, cari ili də yüksək göstəricilərlə başa vuracaqdır. Sonra Azərbaycan Polisinin 100 illik yubileyi münasibətilə bir qrup polis əməkdaşının və iyulun 10-da Gəncədə ictimai asayişi kobud şəkildə pozmaq cəhdinin qarşısının alınması zamanı qəhrəmancasına şəhid olmuş 2 polis zabitinin (ölümündən sonra) təltif edildikləri dövlət mükafatlarının təntənəli şəkildə təqdim edilməsinə həsr olunmuş mərasim keçirilib.

Əvvəlcə nazir xidməti vəzifələrini yerinə yetirərkən şəhid olmuş iki zabitin - İlqar Balakişiyevin və Səməd Abbasovun təltif edildikləri "Azərbaycan Bayrağı" ordenlərini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən mərhumların övladlarına təqdim edib, onlara atalarının qəhrəmanlıq yolunu gələcəkdə davam etdirməyi, Vətənə layiqli övlad kimi yetişmələrini arzulayıb.

Daha sonra Azərbaycan Polisinin 100 illik yubileyi ərəfəsində möhtərəm dövlət başçımızın təltif etdiyi bir qrup əməkdaşa yüksək mükafatlar təqdim edilib.

Nazir R.Usubov şəxsi heyətin gərgin və fədakar əməyini hər zaman yüksək qiymətləndirdiyinə, xüsusən iyulun 10-da Gəncə şəhərində qəhrəmanlıqla həlak olmuş 2 əməkdaşımızı təltif etdiyinə görə ölkə Prezidentinə bir daha dərin təşəkkürünü bildirib, bu ali diqqət və qayğının daxili işlər orqanlarının bütün əməkdaşlarının ruh yüksəkliyinə səbəb olduğunu, onların üzərinə əlavə məsuliyyət qoyduğunu vurğulayıb, bütövlükdə Azərbaycan Polisinin qarşıya qoyulmuş istənilən vəzifənin öhdəsindən bundan sonra da layiqincə gələcəyinə, Vətənə, xalqa və Prezidentə bundan sonra da sədaqətlə xidmət edəcəyinə əminliyini bildirib.

*14 iyul 2018-ci il.*




# AVSTRİYADA GÖRÜŞ KEÇİRİLİB

**Avstriyanın Avropa İttifaqına (Aİ) sədrliyi çərçivəsində iyulun 12-13-də İnsbruk şəhərində Aİ və Şərq Tərəfdaşlığı ölkələrinin ədliyyə və daxili işlər nazirlərinin görüşləri keçirilib.**

İclaslarda ölkəmizi ədliyyə naziri Fikrət Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibində daxili işlər nazirinin müavini İsmət Əliyev də olub.

Əvvəlcə bütün Aİ və Şərq Tərəfdaşlığı ölkələrinin ədliyyə və daxili işlər nazirlərinin iştirakı ilə birgə tədbir keçirilib, aktual mövzular üzrə fikir mübadiləsi aparılıb.

Eyni zamanda, Şərq Tərəfdaşlığı dövlətləri, Aİ-nin Şurasında ardıcıl sədrlik edən ölkələrin (Estoniya, Bolqarıstan, Avstriya və Rumıniya) nazirlərinin, habelə İttifaqın yüksək rəsmilərinin iştirakı ilə ayrıca birgə görüş təşkil olunub.

Görüşdə "Qanunun aliliyinin təşviqi və dürüstlüyünün stimullaşdırılması: məhkəmə və təhlükəsizlik orqanlarında korrupsiyaya qarşı mübarizə" mövzusunda müzakirələr aparılıb.

Tədbirdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri F.Məmmədov dövlətimizin başçısı İlham Əliyevin siyasi iradəsi ilə korrupsiyaya qarşı aparılan qəti mübarizə tədbirlərini, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və bütün layihələrin antikorrupsiya ekspertizasından keçirilməsini, məhkəmə sisteminin islahatını, o cümlədən hakimlərin Avropa Şurası və Avropa İttifaqı tərəfindən örnək kimi dəyərləndirilən ən şəffaf seçimini vurğulayıb. Eyni zamanda, getdikcə səlahiyyətləri genişlənən Məhkəmə-Hüquq Şurasının səmərəli fəaliyyəti, o cümlədən korrupsiyanın qarşısının alınması üzrə tədbirlər, məhkəmə infrastrukturunun müasirləşdirilməsi və elektron məhkəmənin tətbiqi barədə məlumat verilib. Həmçinin Azərbaycanın brendi olan "ASAN xidmət"in yüksək vətəndaş məmnunluğunu təmin edən fəaliyyəti, antikorrupsiya treninqləri, o cümlədən ölkəmizin Avstriyada yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyası ilə səmərəli əməkdaşlığı vurğulanıb.

Bu məlumatlar görüş iştirakçıları tərəfindən böyük maraqla qarşılanaraq təqdir edilib.

Səfər zamanı Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələrinin ədliyyə və daxili işlər nazirləri ilə işçi görüşlər keçirilərək, fikir və təcrübə mübadiləsi aparılıb, ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olunub.

# CİNAYƏTLƏRİN AÇILMASINDA ONLARIN ƏMƏYİ DANILMAZDIR

**Polis veteranları yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın güclənməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə ərazi polis orqanlarının rəhbərliyi və aidiyyatı xidmətlərin əməkdaşları ilə birgə ayrı-ayrı təhsil müəssisələrində, vətəndaşlarla görüşlər keçirərək hüquqi mövzularda maarifləndirmə işləri aparırlar. Onların təcrübəsi və peşəkarlığı cinayətlərin açılmasında mühüm rol oynayır.**

Veteranlar vaxtaşırı görülən işlər barədə hesabat verirlər.

İlin 6 ayı ərzində veteranların köməyi ilə respublika üzrə 2163 cinayətin açılması təmin edilib. Ötən müddət ərzində polis veteranları şəxsi heyətlə təlim-tərbiyə işinin aparılmasına, gənc əməkdaşların peşə vərdişlərinin artırılmasına, onlarda dövlətə və dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hissinin formalaşdırılmasına yönəlmiş tədbirlərdə də fəal iştirak ediblər. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onların zərərli vərdişlərdən uzaq tutulması istiqamətində profilaktik xarakterli tədbirlərin həyata keçirilməsi də daim diqqətdə saxlanılıb. Göstərilən dövr ərzində veteranlar 2273 dəfə respublikanın müxtəlif təhsil müssisələrində (orta məktəblərdə, liseylərdə, kolleclərdə və s.), həmçinin ayrı-ayrı kollektivlərdə vətəndaşlar qarşısında çıxış edib, tövsiyələrini veriblər.

Səmərəli fəaliyyətlərinə görə veteranlardan bir neçəsi DİN rəhbərliyi tərəfindən mükafatlandırılıb.

DİN Veteranlar Şurasının qarşısında duran vəzifələrin yerinə yetirilməsi istiqamətində aparılan tədbirlər bu gün də məqsədyönlü şəkildə davam etdirilir və veteranlarımız onlara göstərilən etimadı doğrultmağa çalışırlar.

***Z.Hüseynov***

# MÜBARİZ KEŞİKDƏ DƏYANƏTLİDİR

**Ümummilli liderin hakimiyyətə qayıdışından sonrakı ilk illərdə ictimai-siyasi sabitlik kövrək olduğundan, hüquq-mühafizə orqanlarının, xüsusilə DiN-in qanunauyğun fəaliyyətini təmin etmək, peşəkar kadrları bu orqanda irəliyə çəkməklə onu xalqın və dövlətin layiqli müdafiəçisinə çevirmək qarşıda duran başlıca vəzifələrdən idi.**

Qısa zaman kəsiyində Azərbaycan Polisi peşəkarlıq imicini yenidən yaratdı, ümumxalq etimadını qazandı. Ölkədə sabitlik bərqərar edildi, cinayətkarlığın artan dinamikasının qarşısı alındı, kriminogen durum tam nəzarətə götürüldü, mütəşəkkil cinayətkarlığa, sabitlik üçün təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı uğurlu tədbirlər həyata keçirildi.

Ümummilli liderimizin müstəqil dövlət quruculuğu işində ilk ciddi addımlarından biri "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" fərmanı dövlət quruluşunun mühafizəsində, insan hüquq və azadlıqlarının cinayətkar qəsdlərdən qorunmasında, cinayətkarlığa qarşı mübarizədə və qanunçuluğun möhkəmləndirilməsində əsaslı dönüş yaratdı.





1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə cəhdlərin qarşısının qanun çərçivəsində alınmasında daxili işlər orqanları da qətiyyətli mövqe tutdu, üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəldi, dövlətçilik sınağından üzüağ çıxdı. Azərbaycan Polisi fəaliyyətini tamamilə yeni norma və prinsiplər üzərində quraraq dövlətçiliyin, ictimai asayişin və qanunçuluğun qorunması sahəsində böyük fədakarlıqlar göstərdi.

Ulu öndər Heydər Əliyev daxili işlər orqanlarının fəaliyyətində əsaslı islahatlar aparılmasını diqqət mərkəzində saxlayırdı. Dahi rəhbərin bu istiqamətdə həyata keçirdiyi tədbirlər hesabına ölkədə baş verən cinayətlərin sayı minimuma endirildi. "Polis haqqında" qanunun qəbulu, 2 iyul tarixinin "Azərbaycan Polisi Günü" elan edilməsi dahi şəxsiyyətin daxili işlər orqanlarına böyük qayğısının ifadəsidir.

İctimai-siyasi sabitlik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolu seçmiş hər bir dövlətin mövcudluğunun mühüm şərtlərindən biridir. Müstəqil Azərbaycanın son illərdə bütün sahələrdə sürətlə inkişaf edən, beynəlxalq miqyasda böyük nüfuz sahibi olan dövlətlərdən birinə çevrilməsi də əsası dünya şöhrətli siyasətçi, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ictimai-siyasi sabitlik amilinə söykənir. Məhz bu sabitlik nəticəsində mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycanın dünya miqyasında sivil, demokratik yolla irəliləyən, beynəlxalq hüquq normalarına və prinsiplərinə hörmətlə yanaşan dövlət imici daha da möhkəmlənmişdir.

Respublikamızda ictimai asayişin, qanunçuluğun və hüquq qaydalarının etibarlı təminatı, vətəndaşların konstitusion mənafelərinin yüksək səviyyədə qorunması, kriminogen durumun sabitliyi Azərbaycanın ötən müddətdə qazandığı ən mühüm nailiyyətlər sırasındadır.

**Ardı var.**

*Könül Nəbizadə,*
*Sabunçu RPİ-nin əməkdaşı*

# RESPUBLİKA BAŞ PROKURORLUĞU, DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATLARI

İyulun 12-də Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralov, daxili işlər naziri, general-polkovnik Ramil Usubov və Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev Gəncə şəhərinə gedərək orada baş vermiş məlum hadisələrlə əlaqədar yaradılmış istintaq-əməliyyat qrupunun rəhbərliyi və üzvləri ilə geniş müşavirə keçirmiş, görülən işlər barədə hesabatlarını dinləmişlər.

Məruzə olunmuşdur ki, həmin qanlı cinayəti törədənlərdən 9 nəfəri tutularaq barələrində məhkəmənin hökmü ilə həbs qətimkan tədbiri seçilmişdir.

Dövlət qurumlarının rəhbərləri cinayətin digər iştirakçılarının da tapılıb-tutulması üçün istintaq hərəkətlərinin intensivliyinin artırılması, əməliyyat-axtarış tədbirlərinin gücləndirilməsi ilə bağlı əlavə tapşırıqlar vermişlər.

Müşavirədən sonra Baş prokuror Zakir Qaralov, daxili işlər naziri Ramil Usubov və Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev iyulun 10-da radikal dini yönümlü şəxslərin Gəncə şəhərində asayişi kobud şəkildə pozmasının qarşısını alarkən şəhid olmuş polis polkovniki İlqar Balakişiyevin və polis polkovnik-leytenantı Səməd Abbasovun yas mərasimlərində iştirak etmişlər. Onlar, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, polis əməkdaşlarının ailələrinə və yaxınlarına Dövlət Başçısının başsağlığını çatdırmış, kədərlərinə şərik olmuşlar.

*12 iyul 2018-ci il.*

**Xəbər verildiyi kimi, iyulun 10-da Gəncə şəhərində ictimai asayişi pozmağa cəhd göstərmiş radikal dini yönümlü bir qrup şəxsin xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarına küt və kəsici-deşici alətlərlə hücum etməsi nəticəsində iki polis zabiti şəhid olmuşdur.**

**Bu cinayətin iştirakçılarının müəyyən edilərək tutulması istiqamətində Dövlət Başçısının şəxsi nəzarəti altında intensiv surətdə davam etdirilən əməliyyat-axtarış tədbirləri nəticəsində polis əməkdaşlarını qətlə yetirməkdə şübhəli bilinən Rəşad Böyükkişiyevin Şəmkir rayonunun Moranlı kəndindəki gizləndiyi yer müəyyən edilmiş və tutulması üçün iyulun 13-ü səhər saatlarında keçirilən əməliyyat zamanı silahlı müqavimət göstərdiyindən o, yerində məhv edilmişdir.**

**Gəncədə asayişin pozulmasının qarşısı alınarkən polis əməkdaşlarına ilk hücum edənlərdən biri - Samir İbrahimovun da gizləndiyi yer müəyyən edilmiş və keçirilmiş əməliyyat tədbirləri ilə yaxalanmışdır.**

**Bütövlükdə qeyd olunan cinayətin fəal iştirakçılarından 11 nəfərin tutulması təmin olunmuş, biri məhv edilmişdir.**

**Törədilmiş qanlı cinayətin bütün iştirakçılarının müəyyən edilib məsuliyyətə cəlb olunmaları məqsədilə zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.**

**Görülən işlərin gedişi barədə əlavə məlumat veriləcək.**

*13 iyul 2018-ci il.*

# VƏTƏNƏ BÜRÜNC MEDALLA QAYITDI



**Bu yaxınlarda ABŞ-ın Orlando şəhərində Çin döyüş Sənətləri üzrə dünya çempionatı keçirilib.**

Milli komandamızın tərkibində mübarizə aparan **DİN Daxili Qoşunlarının baş leytenantı İlqar Nəcəfli** yüksək fiziki və texniki hazırlıq nümayiş etdirib. Sanda versiyası üzrə Dominikan Respublikası, İtaliya və ABŞ-dan olan idmançılarla qarşılaşan təmsilçimiz dünya çempionatının bürünc medalına sahib olub.

Qeyd edək ki, İ.Nəcəfli mötəbər yarışlarda ölkəmizi layiqincə təmsil edir. O, ikiqat dünya və Avropa çempionu, Avro-Asiya yarışının qalibi, dünya kubokunun sahibidir.

# DÜNYANIN ƏN TƏHLÜKƏSİZ ÖLKƏLƏRİ SIRASINDA

Azərbaycan ABŞ-ın ictimai rəy institutu olan «Gallup»un versiyasına görə 2018-ci ildə dünyanın ən təhlükəsiz ölkələri siyahısında 25-ci yerdə qərarlaşıb. İnstitutun rəsmi saytı xəbər verir ki, sorğuda 142 ölkədən 15 yaşdan yuxarı 148 min nəfər, eləcə də Azərbaycandan 1000 nəfər iştirak edib.

Ölkəmiz 85 bal toplayıb. Qonşu ölkələrdən Gürcüstan siyahıda 17, Ermənistan 69, Türkiyə 72, Rusiya isə 98-ci yeri tutub.

Sorğu zamanı sakinlərə gecələr şəhərdə tək gəzməyin mümkünlüyü, polisin işindən razılıq və son 12 ay ərzində onlara qarşı hücum və ya qarət aktının qeydə alınıb-alınmaması ilə bağlı suallar ünvanlanıb.

Sorğunun yekununda reytinq tərtib olunub və ona Sinqapur liderlik edib. Siyahıda ikinci yeri Norveç, İslandiya və Finlandiya bölüşüb.

İlk onluğa İsveçrə, Kanada, Danimarka, Sloveniya, Lüksemburq, Avstriya, Niderland daxildir.

Siyahının sonuncu yerlərində Cənubi Sudan, Əfqanıstan və Venesuela qərarlaşıb.

*Natiq Cavadov*

# AZƏRBAYCAN YÜKSƏLİŞ YOLU İLƏ İRƏLİLƏYİR

## BU YOLDAN BİZİ HEÇ BİR QÜVVƏ DÖNDƏRƏ BİLMƏZ

**Son 15 il ərzində möhtərəm Prezidentimiz İlham Əliyevin müdrik və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan böyük uğurlara imza atmışdır. Ölkə iqtisadiyyatı davamlı və sabit inkişaf mərhələsinə qədəm qoymuş, vətəndaşlarımızın sosial rifahı təmin edilmiş, ölkəmiz regionun lider dövlətinə çevrilmişdir. Dəfələrlə qeyd olunduğu kimi, bu uğurların əsasında ölkəmizdə xalq-iqtidar birliyi nəticəsində əldə olunmuş dayanıqlı sabitlik, təhlükəsizlik, əmin-amanlıq durur.**



Bütün bunlar dövlət başçımızın Nazirlər Kabinetinin cari ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı çıxışında öz əksini tapmışdır. Bu müddət ərzində ***ümum daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2 faiz, sənaye istehsalı 1 faiz, o cümlədən, qeyri-neft sənayesi 8,8 faiz artmışdır. Altı ay ərzində kənd təsərrüfatı 7,6 faiz, əhalinin pul gəlirləri 9,3 faiz artmışdır.*** Xarici ticarət dövriyyəsi 35 faiz artaraq 4,2 milyard dollar müsbət saldoya malik olmuşdur. ***Ölkəmizin valyuta ehtiyatı 44,3 milyard dollara çatmışdır.***

Bunlar dostlarımızı sevindirir, bədxahlarımızı narahat edir. Vətənimizdə hökm sürən sabitlik və əmin-amanlıq, tərəqqi və quruculuq işlərinə, habelə xarici siyasət sahəsində uğurlarımıza kölgə salmaq niyyəti güdən qüvvələr həm xaricdə, həm də daxildə məkrli niyyətlərini cidd-cəhdlə həyata keçirməyə çalışırlar.

Azərbaycan bu gün təkcə Cənubi Qafqazda deyil, bütün dünyada sülhün və təhlükəsizliyin bərqərar olmasına çalışır. Azərbaycanın müəllifi olduğu, Gürcüstan və Türkiyə ilə birgə həyata keçirdiyi irimiqyaslı enerji, nəqliyyat və digər infrastruktur layihələri region və dünya dövlətlərinin, xalqlarının sosial-iqtisadi inkişafına, təhlükəsizliyinə xidmət edir.

Dövlət başçısının yeni iqtisadi mərhələdə həyata keçirdiyi strateji xəttin əsas komponentləri çevik addımlarla dayanıqlı iqtisadi inkişafın təmini, islahatların kompleks həyata keçirilməsi yolu ilə makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, iqtisadi şaxələndirmə mexanizminin təkmilləşdirilməsi, regionların və sahibkarlığın inkişafının sürətləndirilməsidir. Bu istiqamətə əldə olunan nəticələr hesabına ilin birinci yarısında qeyri-neft ixracı xeyli dərəcədə artıb.

Cari ilin geridə qoyduğumuz dövrünə nəzər saldıqda görürük ki, ***ölkədə 23,8 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir.*** Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 8,8 faiz artmış, neft sektorunda 0,2 faiz azalmışdır.

Emal sektorunda avtomobil istehsalı 16,6, tütün məmulatlarının istehsalı 3,4, poliqrafiya məhsullarının istehsalı 2,7, mebel istehsalı 2 dəfə, elektrik avadanlıqlarının istehsalı 84,1, həm hazır metal məmulatlarının, həm də toxuculuq sənayesi məhsullarının istehsalı 64,1, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 56,9, tikinti materiallarının istehsalı 34, metallurgiya sənayesi məhsullarının istehsalı 15, geyim istehsalı 10,3, içkilərin istehsalı 5,6, kimya sənayesi məhsullarının istehsalı 0,4, əczaçılıq məhsullarının istehsalı 0,3 faiz artmış, ağac məmulatlarının emalı və istehsalı 2,3, qida məhsullarının istehsalı 3,1, maşın və avadanlıqların istehsalı 6,7, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 8,4, kompyuter, elektron və optik məhsulların istehsalı 10,6, rezin və plastik kütlə məmulatlarının istehsalı 19,3, digər nəqliyyat vasitələrinin istehsalı 62,7 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 4, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda 0,5 faiz artım qeydə alınmışdır

Ötən müddət ərzində qlobal və regional miqyasda gözlənilən riskləri neytrallaşdırmaqla yanaşı, valyuta ehtiyatlarını qoruyub saxlamaq və artırmaq, sosial proqramların dayanıqlılığını qorumaq da mümkün olmuşdur.

*Zeyni Hüseynov*

# MARAQ DÜNYASI



## YUXUDA NƏLƏR OLUR?

Ömrümüzün üçdəbiri yuxuda keçir, amma bu müddətdə baş verənlər haqqında məlumatımız çox azdır. Texnologiyanın yeni nailiyyəti sayəsində unutduğumuz yuxunu xatırlaya biləcəyik.

Massaçusets Texnoloji İnstitutunun fizioloqu Adam Horoviç icad etdiyi cihazın yuxunun müxtəlif mərhələlərində bioməlumatları qeydə aldığını bildirib. Onun sözlərinə görə, bu məlumatlar tibdə hipnaqogiya adlanan oyaq vəziyyətdən dərin yuxu mərhələsində keçid zamanı yuxuda görüb unutduqlarımızı təkrar canlandırmağa kömək edəcək.

Tomas Edison, Nikola Tesla, Edqar Po və Salvador Dali kimi dahilər yuxunun bu fazasına sirayət etmək üçün sadə üsuldan – polad kürə formasında əşyadan istifadə ediblər. İnsanın dərin yuxuya daldığı zaman əlindən düşərək səs çıxaran bu alət hipnaqogik hallüsinasiyaları xatırlamağa kömək edirmiş.

"Dormio" adlandırılan yeni cihaz mobil telefona, yaxud robota qoşulur və yuxuya getdiyiniz zaman müəyyən sözlər tələffüz edir. Bu kəlmələr yuxugörmənin məzmununa təsir edə və yatmış adamı dərin yuxu vəziyyətindən çıxara bilir. Adam Horoviç əlavə edib: "Eksperiment zamanı biz "Jibo" robotunun köməyi ilə cihazın oyatdığı insanın yuxuda eşitdiyi sözləri qeydə aldıq və onların təkrar edildiyinin şahidi olduq. Suallara cavab verən bir neçə saniyə sonra yenidən dərin yuxuya daldı".

## GÜNƏŞ ATMOSFERİNİN TƏDQİQİ



ABŞ-ın Milli Aeronavtika və Kosmik Fəzanın Tədqiqi Agentliyi (NASA) ilk dəfə Günəş atmosferinə daxil olacaq və tədqiqat aparası xüsusi cihazlarla təchiz edilmiş kosmik gəmini fəzaya göndərəcək.

Günəşə ən yaxın məsafədə tədqiqat aparacaq "Parker Solar Probe" kosmik gəmisi kainatın ən nəhəng ulduzu ilə bağlı elmi ictimaiyyəti maraqlandıran bir çox sualın cavabını tapmağa kömək edəcək.

"Parker" Günəş tacı və fəzaya axan hissəciklər, onların yaratdığı partlayışların Yer planetinə təsiri, maqnit sahələri və plazmaları daha yaxından öyrənməyə imkan yaradacaq. Bunun üçün o, qarşıdakı yeddi ildə Günəşə 6,4 milyon kilometr məsafəyədək yaxınlaşacaq və ətrafında elliptik orbit üzrə 24 dövrə vuracaq. Bu, ötən əsrin 70-ci illərində "Helios 2" kosmik gəmisinin Günəşə yaxınlaşdığı 43,2 milyon kilometr məsafədən qat-qat çoxdur. Beləliklə, "Parker" dünyanın ən nəhəng ulduzuna Günəş sisteminin ən yaxın planeti Merkuridən də yaxın olacaq.

Kosmik gəminin 11,43 santimetr qalınlığında olan xüsusi örtüyü cihazları 1300 dərəcə selsiyə çatan istidən qoruyacaq. Kosmik gəmi, həmçinin Venera planetinə 7 dəfə yaxınlaşacaq ki, bu da onun sürətini saniyədə 200 kilometrə qədər artıracaq. Günəşə ən yaxın məsafəyə isə 2024-cü ilin dekabrında çatmaq mümkün olacaq.

"Parker" gəmisinin ölçüsü kiçik avtomobil qədərdir və 3-D fotoşəkilləri çəkən aparat, elektrik və maqnit sahələrini ölçən cihazla təchiz edilib. Günəş tacından gələn güclü radiasiya axınını ölçmək üçün də xüsusi avadanlıq var.

*Çingiz Şıxverdiyev*

# ÖMÜR GÜN KEÇDİ...

**Polisin 100 illik yubileyi ərəfəsində görüşdük. İsti bir günə təsadüf etmişdi bu. Düzü, çox həyəcanlı idim ki, tıxac üzündən gecikərəm. Amma vədələşdiyimiz yerə adətim üzrə vaxtından 10 dəqiqə öncə gəldim. Ağ saçlı, ilk baxışdan zəhmli görünən və eyni zamanda da mülayim olan dəyərli veteranımızın artıq orda olduğunu gördükdə hec təəccüblənmədim. Ləyaqətli həyat fəaliyyəti ilə bizlərə nümunə olan veteranımızın dəqiqliyinə dələlət edirdi bu...**



Bütün çətinliklərə baxmayaraq, hər zaman işlərinə məsuliyyətlə yanaşan, hörmətə layiq ömür yaşayan ahıllarımız bizim üçün örnəkdir, həyat məktəbidir. **İstefada olan polis polkovniki Xalid Səfərəliyev** belələrindəndir.

Ömrünün 30 ildən çoxunu daxili işlər orqanlarında xidmətə həsr edib, saçlarını da bu yolda ağardıb.

Xalid müəllim 1939-cu ildə Qəbələdə dünyaya göz açıb. Uşaqlıq, yeniyetməlik illəri elə də asan keçməyib. Azərbaycan Dövlət Universitetinin Hüquq fakultəsini bitirdikdən sonra ilk iş yeri DİN-in Kadrlar şöbəsi olub. Biliyi və bacarığı, işinə məsuliyyəti ilə rəhbərliyin etimadını qazanıb, 1974-cü ildə Saatlı Rayon DİŞ-nin rəisi vəzifəsinə irəli çəkilib. İşlədiyi müddətdə rayon ictimaiyyəti arasında böyük hörmət qazanıb. 1980-87-ci illərdə DİN-də müxtəlif vəzifələrdə çalışıb. 1992-ci ildə təqaüdə çıxıb.

Harada işləməsindən asılı olmayaraq, insanlarla xoş ünsiyyət qurub. Hər bir işi uğurla başa çatdırmağa çalışıb.

Bu gün də Xalid Səfərəliyevi tanıyanlar onun barəsində ehtiramla söz açırlar.

Təqaüdə çıxdıqdan sonra da əli işdən soyumayıb. 1992-1994-cü illər Azərbaycan Respublikası Ədliyyə Nazirliyində şöbə müdiri işləyib. 1996-cı ildən bu günə kimi isə Azərbaycan Dəmiryolları Qapalı Səhmdar Cəmiyyətində hüquqşünasdır. Yenə də iş başındadır 80 yaşlı polis veteranı. Axı peşəkar, məsuliyyətli insanlara hər zaman, hər yerdə ehtiyac var.

Xalid müəllim söhbət əsnasında onu da bildirdi ki, indi müstəqil, demokratik dövlətin vətəndaşı olaraq, hər kəs çalışmalıdır ki, öz işinə vicdanla yanaşsın. Bu gün işləmək, qurub-yaratmaq üçün hər cür şərait yaradılıb. Ona görə gənc əməkdaşlar indi daha səylə öz üzərlərində işləməli, dünyagörüşlərinin və peşəkarlıqlarının artırılmasına çalışmalı, bu yolda ağsaqqal həmkarlarının təcrübəsindən yararlanmalıdırlar.

Nəvəsi Suat Həmzəyev də Xalid müəllimin peşəsini davam etdirir. O, daxili işlər orqanlarında xidmət edir, polis baş leytenantıdır.

Hörmətli veteranımız taleyindən razıdır. Daxili işlər orqanlarında keçdiyi illəri ömrünün ən dəyərli dövrü adlandırır, bundan qürur duyduğunu deyir. Ölkə və DİN rəhbərliyinin veteranlara göstərdiyi diqqət və qayğını isə yaşamaq şövqünün daha da artırdığını bildirir.

Demə, şer yazmağı da varmış. Yəqin ki, çətin həyat, çətin xidmət yollarında sərtliyi ilə bərabər, kövrəkliyi, yaradıcılıq enerjisi də onun dayağı olub...

***Aytəkin Nəcəfova, polis polkovnik-leytenantı***

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ PASPORT, QEYDİYYAT VƏ MİQRASİYA İDARƏSİNƏ BİLAVASİTƏ TABE OLAN ŞƏKİ VƏ İMİŞLİ "ASAN XİDMƏT" MƏRKƏZLƏRİ ÜZRƏ REGİONAL QRUPLARDA VAKANT OLAN 36 (OTUZ ALTI) KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

**Kiçik rəis heyəti vəzifələrinə:** Respublikanın Şəki "ASAN xidmət" mərkəzində (18), İmişli "ASAN xidmət" mərkəzində (18), ümumilikdə 36 vakant yer tutmaq məqsədi ilə keçirilən müsabiqədə aşağıdakı tələblərə cavab verən Azərbaycan Respublikasının qadın vətəndaşları iştirak edə bilərlər.

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşı 20-dən 25-dək, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının dövlət orta, xüsusi-orta və ali təhsil müəssisələrini bitirmiş, Şəki, Oğuz, Qax, İmişli, Saatlı və Beyləqan rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan Azərbaycan Respublikasının qadın vətəndaşları iştrak edə bilərlər.

Namizədlərin sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompyuter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsili olan və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2018-ci ilin iyun ayının 27-dən iyul ayının 27-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri, R.Behbudov küçəsi, 130 ünvanında yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-şəxsiyyət vəsiqəsi;***

***-təhsil haqqında sənəd (orta təhsil haqqında attestat və ya diplom);***

***-əmək kitabçası (olanlar üçün).***

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat üçün əlaqə telefonu:**
**(012) 590-64-41 şəhər**
**(012) 590-64-31 (312) daxili**

## *DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!*

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ RƏHBƏR VƏZİFƏLƏR ÜZRƏ KADR EHTİYATININ YARADILMASI ÜÇÜN POLİS AKADEMİYASININ «DAXİLİ İŞLƏR ORQANLARINDA İDARƏETMƏNİN TƏŞKİLİ VƏ İXTİSASARTIRMA» FAKÜLTƏSİNİN "DAXİLİ İŞLƏR ORQANLARINDA İDARƏETMƏNİN TƏŞKİLİ" TƏDRİS KURSUNA 2018/2019-CU TƏDRİS İLİNDƏ DİNLƏYİCİLƏRİN QƏBULUNA DAİR MÜSABİQƏ ELAN EDİR:

Polis Akademiyasının «Daxili işlər orqanlarında idarəetmənin təşkili və ixtisasartırma» fakültəsinin "Daxili işlər orqanlarında idarəetmənin təşkili" tədris kursuna qəbul üçün müsabiqədə – ali hüquq təhsilinə və daxili işlər orqanlarında orta və böyük rəis heyəti vəzifələrində 5 il və daha artıq xidmət stajına malik, böyük rəis heyəti vəzifələrinin 3-cü və daha yuxarı təsnifat vəzifələrində xidmət edən, fiziki cəhətdən sağlam və hazırlıqlı, qüvvədə intizam tənbehi olmayan 40 yaşınadək əməkdaş iyul ayının 14-dən 31-dək birbaşa rəisləri vasitəsilə Azərbaycan Respublikasının daxili işlər nazirinə raportla müraciət etməklə iştirak edə bilər.

Əməkdaşların tədris kursuna qəbul edilməsi Azərbaycan Respublikası daxili işlər nazirinin sədrlik etdiyi Müsahibə Komissiyası tərəfindən həyata keçirilir.

Müsahibə daxili işlər orqanlarının, əməkdaşın xidmət etdiyi struktur qurumun fəaliyyətini tənzimləyən qanunvericiliyin və digər normativ hüquqi aktların tələbləri üzrə keçirilir.

Tədris kursuna qəbul olunanlar Akademiya rəisinin əmri ilə dinləyici qismində dəyişən heyətin sıralarına daxil edilməklə onların əmlak və maliyyə təminatı tutduğu vəzifə üçün müəyyən olunmuş normalar həcmində saxlanılır.

Təhsil müddətində dinləyicilər tutduğu vəzifə üçün müəyyən olunmuş həddə növbəti xüsusi rütbəyə nomenklatura aidiyyəti üzrə təqdim olunur, həmçinin Akademiya rəisinin səlahiyyətləri ilə mükafatlandırıla və ya intizam məsuliyyətinə cəlb edilə bilərlər.

Fakültədə təhsil müddəti əyani olmaqla 1 tədris ili müəyyən olunmuşdur. Akademiya tərəfindən tədris kursunu müvəffəqiyyətlə başa vurmuş dinləyicilərin siyahısı ehtiyat kadr siyahısına daxil edilməsi üçün Baş Kadrlar İdarəsinə göndərilir, onlara müəyyən olunmuş nümunədə şəhadətnamə verilir, hər biri xidmətini davam etdirmək üçün əvvəlki iş yerinə ezam olunur.

Qəbul qaydaları DİN-in 5 dekabr 2017-cü il tarixli Q50-001-17 №-li Qərarı ilə təsdiq edilmişdir. Namizədlərin tədris işləri həmin qaydalara uyğun tərtib edilməklə avqust ayının 4-dək Baş Kadrlar İdarəsinə təqdim olunmalıdır.

Daha ətraflı məlumatı nazirliyin Baş Kadrlar İdarəsinin Təhsil-təlim, ixtisasartırma şöbəsindən **17-76, 19-74 (daxili), 590-97-76, 590-99-74** nömrəli əlaqə telefonları vasitəsi ilə almaq olar.

***DİN-in Baş Kadrlar İdarəsi***

İstanbulda polis 3 rayonda narkotacirlərə qarşı reyd keçirib. Şəhərdə 45 ünvanda aparılan reydlər nəticəsində 3-ü qadın olmaqla, 53 nəfər saxlanılıb.

Qeyd edək ki, Türkiyə Daxili İşlər Nazirliyi 2018-ci ilin yanvar-fevral ayları ərzində 3 ton 722 kiloqram heroin aşkarlayıb. Həmçinin 16 ton 802 kiloqram psixotrop maddə və 202 kiloqram «banzay» qanunsuz dövriyyədən çıxarılıb.

İki ay ərzində narkoticarətlə məşğul olan 3823 nəfər tutulub.




Ötən il isə Türkiyədə 20 min ton heroin aşkarlanaraq dövriyyədən çıxarılıb.

*****

***Bundan sonra, hər bir vətəndaş mobil aplikasiya ilə yol qaydalarının pozulmasını qeyd edib, Gürcüstanın Daxili İşlər Nazirliyinə göndərə bilər.***

***Bu barədə Gürcüstan Parlamentində yol təhlükəsizliyi mövzusu ilə bağlı keçirilən görüşdə bildirilib. Daxili İşlər Nazirliyi onlara müvafiq reaksiya verəcək. Bununla yanaşı, pozuntuları əks etdirən videoları çəkən vətəndaşların şahid statusu ilə məhkəməyə gəlmək məcburiyyəti olmayacaq.***

*****

İspaniyada Gürcüstanın Daxili İşlər Nazirliyi ilə birgə həyata keçirilmiş "Kuşi 2" adlı genişmiqyaslı xüsusi əməliyyat zamanı erməni-gürcü kriminal qruplaşmasının 129 üzvü saxlanılıb. Bu barədə Gürcüstan DİN-in nümayəndəsi Mamuka Çelidze keçirdiyi brifinqdə bildirib. O deyib ki, "İnterpol" və "Avropol"un da cəlb olunduğu xüsusi əməliyyat zamanı cinayətkar qruplaşmaya üzv olan, əsasən, erməni əsilli 7 "qanuni oğru" da yaxalanıb.

*****

***Gürcüstanın cəzaçəkmə müəssisələrində saxlanılan Azərbaycan vətəndaşlarının sayı 90 nəfərdir. Ölkənin Cəzaların İcrası və Probasiya Nazirliyi xəbər verir ki, bu ilin may ayına olan məlumata əsasən, qonşu ölkədə həbs cəzası çəkən Azərbaycan vətəndaşlarının 29-u təqsirləndirilən şəxs, 61-i isə məhkumdur. Təqsirləndirilən şəxslərin 26-sı kişi, 3-ü qadın, məhkumların isə 57-si kişi, 4-ü qadındır.***

***Azərbaycan vətəndaşları Gürcüstanda həbs cəzası çəkən əcnəbilərin 16,9 faizini təşkil edir.***

*****

Hindistan polisi "ölüm Allahı" Yamaraca ilə qayda pozanları qorxutmaqla yollarda avtoqəzaların sayını azaltmağa çalışır.

İlahinin "qorxu diqqəti"nə əsasən, qoruyucu şlemlərsiz motosiklet sürənlər düşür. Belə qayda pozanlara Yamaracanın kostyumunda bir nəfər yaxınlaşır, çiçək uzadır və inadla xahiş edir ki, təhlükəsizlik qaydalarına əməl etsin.

"Ölüm Allahına imkan vermə ki, arxanca gəlsin, şlemi gey", – deyə polis bayker sürücüsünə müraciət edir.

***N.Cavadov***

## İyulun 11-dən 17-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 673 cinayət qeydə alınmış, onların 91-i «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 18 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 185 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 7 nəfər, borclu şəxs qismində axtarışda olan 122 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 34 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 14 nəfər ölmüş, 75 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 35 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 128 nəfər saxlanılmışdır.

Daxili İşlər Nazirliyinin rəhbərliyi Səfərbərlik İşləri və Mülki Müdafiə Şöbəsinin rəisi
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Təşkilat-İnspeksiya İdarəsinin rəhbərliyi və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin rəisi Nüsrət Şirinov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əlahiddə Çevik Polis Alayının komandiri Zaur Abdullayev və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Baş İstintaq və Təhqiqat İdarəsinin rəisi Emil Usubov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Polis Akademiyasının rəisi Nazim Əliyev və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sadiq Gözəlov, Ehsan Zahidov, Cavid Xaspoladov Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oktay Kərimov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Tibb İdarəsinin rəisi Mahmud Yusifov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi Gündüz Sadıxov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Fuad Bəxtiyarov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİO-nun Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun icraçı direktoru Sadiq Gözəlov
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Mətbəəsinin rəisi Zaur Hüseynov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Maliyyə-Plan İdarəsinin şəxsi heyəti idarə rəisi Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov və Şuranın üzvləri
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10082
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00